*UOT 159.9*

***Qəribə Vahid qızı Rəhimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-2231-3660*
*https://doi.org/10.69682/azrt.2024.91(3).135-139*

# ŞƏXSİYYƏTİN ƏXLAQİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞMASININ PSİXOLOJİ ƏSASLARI

***Гариба Вахид гызы Рахимова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по психологии*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ ЛИЧНОСТИ

***Gariba Vahid Rahimova***
*associate professor at*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in psychology*

# THE PSYCHOLOGICAL BASIS OF THE FORMATION OF MORAL QUALITIES OF THE PERSONALITY

**Xülasə**. Tərbiyə psixologiyası sahəsində tədqiqat aparan psixoloqlar belə bir qənaətə gəlmişlər ki, şagird şəxsiyyətinin təşəkkülündə həlledici yeri təkcə onların fəaliyyətinin düzgün təşkili, şagirdlərin əxlaqi davranış təcrübələri toplamaları tutmur, eyni zamanda burada düzgün əxlaqi davranış motivlərinin tərbiyə edilməsi də mühüm rol oynayır. Bu baxımdan, şagirdlərin tələbat sahəsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Çox vaxt şagirdin davranışındakı bu və ya digər cəhət onun tələbatı ilə bağlı olur.
***Açar sözlər:*** *şəxs, şəxsiyyət, psixologiya, əxlaq, tərbiyə.*

**Резюме.** Психологи, проводящие исследования в области воспитательной психологии, пришли к выводу, что решающее место в формировании личности обучающегося занимает не только правильная организация его деятельности, сбор опыта нравственного поведения учащихся, но и воспитание правильных нравственных мотивов поведения. Личность ученика также играет важную роль. С этой точки зрения важно изучить сферу потребностей учащихся. Часто тот или иной аспект поведения ученика связан с его потребностями.
***Ключевые слова:*** *человек, личность, психология, нравственность, воспитание.*

**Summary**. Psychologists conducting research in the field of educational psychology have come to the conclusion that the decisive place in the formation of the student's personality is not only the correct organization of their activities, the collection of students' moral behavior experiences, but also the education of the correct moral behavior motives. language also plays an important role. From this point of view, it is important to study the area of demand of students. Often this or that aspect of the student's behavior is related to his needs.
***Keywords:*** *person, personality, psychology, morality, upbringing.*

Yetişməkdə olan nəsillərin hərtərəfli inkişafında əxlaq tərbiyəsinin rolu böyükdür. Əxlaq tərbiyəsinin məqsədi yetişən gənc nəsli yaşadığımız cəmiyyətin əxlaq normalarına, cəmiyyətdə müəyyən edilmiş davranış qaydalarına əməl etməyə alışdırmaq, onları milli mentalitetə,

adət və ənənələrə uyğun hərəkət etməyə sövq etdirməkdir. Əxlaq tərbiyəsi görmüş şəxs cəmiyyətin əxlaq normalarına, milli-mənəvi dəyərlərə, adət-ənənələrə əməl edir. Hər hansı bir insanın mənəvi simasını müəyyənləşdirmək üçün birgəyaşayış qaydalarına onun nə dərəcədə əməl etdiyinə diqqət yetirilir.

Elmi-pedaqoji ədəbiyyatlarda qeyd edildiyi kimi, əxlaq tərbiyəsinin mahiyyəti, məzmunu ictimai-siyasi quruluşdan asılı olaraq dəyişir. Əxlaqın formalaşmasına ictimai şüurun, siyasətin, hüququn, fəlsəfənin, ədəbiyyatın, mədəniyyətin, tarixin ciddi təsiri olur. Onlar əxlaq tərbiyəsinin məzmununa və xarakterinə təsir göstərirlər. Tərbiyə psixologiyasında diqqəti cəlb edən əsas məsələlərdən biri şəxsiyyətin əxlaq tərbiyəsi, onda əxlaqi sahənin formalaşmasıdır. Adətən, məktəblinin tərbiyəsindən danışarkən birinci növbədə onun əxlaqi cəhətdən formalaşmasına nəzər yetirirlər. Buna görə də şəxsiyyətin əxlaqi sahəsinin formalaşmasının psixoloji əsasları ilə tanış olmaq tərbiyəçi üçün az əhəmiyyətə malik deyildir. Gələcək nəsillərin təlim-tərbiyə məsələlərini milli-mənəvi dəyərlərimiz, Azərbaycan xalqının tərbiyə ənənələri və uzaqgörən dahi şəxsiyyətlərimizin müdrik fikirləri əsasında qurmaq tərbiyə işinin təşkilində əsas vəzifələrdən biridir.

Tusinin "Əxlaqi-Nasiri" adlı əsəri islam dünyasında ilk sistemli əxlaq kitabı olaraq qəbul edilmişdir. Əsər Tusiyə dünya şöhrəti qazandırmışdır. Tusi kəskin idrakı, dərin zəkası və uzaqgörən ağlı ilə dövrünün nümayəndələrindən fərqlənmişdir. Onun dünya şöhrətli "Əxlaqi-Nasir" əsəri bu kəskin zəkanın ən qiymətli məhsulu kimi təravətini qorumaqdadır. N. Tusiyə görə, saf əxlaqlı nəslin tərbiyə edilməsində valideynlərin, müəllim və tərbiyəçilərin, dostların, eləcə də nəzəri və əməli cəhətdən faydalı işlə məşğul olmağın əhəmiyyəti böyükdür.

Ədalətli vicdanın olmasını da əsas şərt hesab edən N. Tusi insanın kamilliyində, səadətə çatmasında, xeyirli işlər görməsində vicdanın əhəmiyyətindən bəhs edir. Əxlaqı saflaşdırmağın bir sənət olduğunu və onun ailə, dövlət və bəşəriyyət üçün lazımlı bir sənət olduğunu sübut etməyə çalışır. Tusinin fikrincə, "... hər işi görən insandır, onun üçün də insan tərbiyəsi hər şeydən vacibdir, bununla məşğul olan elm də ən şərəfli sayılmalıdır, çünki yalnız "əxlaqı saflaşdırma sənəti" alçağı yüksəyə qaldırmağa, bacaranları istedadları daxilində "səadətə" çatdırmağa qadirdir".

Böyüməkdə olan uşağın təqdirə layiq davranış mədəniyyətinə, əxlaqi təmizliyə və mənəvi kamilliyə malik olması yönündə dəyərli fikirlər söyləyən Tusi bu əsərdə "Söz demək qaydaları haqqında", "Oturub-durmaq adətləri, hərəkət və sükut qaydaları" haqqında, "Yemək qaydaları haqqında", "Şərab içmək qaydaları" haqqında və digər nəsihətamiz fikirlərini qeyd etmişdir. Hamıya məlumdur ki, uşağın düşdüyü yeni şəraitdə necə davranması üçün onun istinad etməli olacağı geniş əxlaqi təsəvvürləri, əxlaqi bilik ehtiyatı olmalıdır.

Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, əxlaqi bilik və anlayışların mənimsənilməsi prosesi mürəkkəb xarakter daşımaqla, xüsusi rəhbərlik tələb edir. Təsadüfi hadisələrin, düzgün olmayan mikromühitin, böyüklərin düzgün olmayan davranışının və s. təsiri altında yaranan əxlaqi anlayışlar təhrif olunmuş xarakter daşıya bilər. Bu isə səhv davranışa gətirib çıxara bilər. Ona görə də birinci növbədə əxlaqi təsəvvür, bilik və anlayışların yaranması qayğısına qalmaq lazımdır. Lakin təcrübə göstərir ki, əxlaqi anlayışların mənimsənilməsi əxlaqi şüurun yaranması və inkişafı üçün mühüm rol oynasa da, öz-özlüyündə hələ əxlaqi davranışın formalaşmasını təmin edə bilmir.

Bir motiv kimi tələbatlar şagirdin dav-ranışını şərtləndirir. Buradan tərbiyə prosesində psixoloji cəhətdən diqqəti cəlb edən və nəzərə alınması zəruri olan bir tələb - şagirdin davranışına qiymət verərkən onun motivini müəyyənləşdirmək tələbi meydana çıxır.

Psixoloqların tədqiqatları sübut etmişdir ki, motivdən asılı olaraq eyni fəaliyyət nəticəsində şagirdlərdə müxtəlif əxlaqi keyfiyyətlər formalaşa bilər. Məs: bir şagird öz yoldaşının düzgün olmayan hərəkəti haqqında sinif rəhbərinə xəbər verir. Şagirdi buna vadar edən, başqa sözlə onun bu cür hərəkətinin motivi müxtəlif ola bilər.

Ola bilsin ki, şagird öz yoldaşını bu vəziyyətdən çıxarmaq, ona kömək etmək məqsədilə sinif rəhbərindən kömək gözləyir. Yaxud sinif rəhbərinin yanında özünü ucaltmaq, onun nüfuzunu qazanmaq üçün bu cür hərəkət edir, lakin ola bilsin ki, şagird öz yoldaşından qisas almaq üçün bu yolu tutur.

Məhz buna görə də müəllim şagirdin davranışının hansı motivdən irəli gəldiyini aşkara çıxarması da onu düzgün istiqamətə yönəltməlidir. Əks halda şagird şəxsiyyətində arzuolunmaz keyfiyyətlər formalaşa bilər. Bu cəhəti nəzərə alaraq psixoloji ədəbiyyatda belə bir müddəa irəli sürülür ki, tərbiyə işində başlıca cəhət düzgün davranış motivlərinin yaranmasına, əməli işdə əsas tutulmasına və bütün situasiyalarda şagirdin eyni dərəcədə əxlaqi davranmasına nail olmaqdır.

Aparılmış psixoloji tədqiqatlardan və məktəb təcrübəsindən aydın olur ki, çox vaxt uşaqlar əxlaq normalarını yaxşı bildikləri, onun haqqında geniş biliyə malik olduqları halda, öz davranışlarında onlara əməl etmirlər. Bu isə bəzən müəllimdə, tərbiyəçi də təəccüb doğurur. Ona görə də şagirdin necə davranmağı yaxşı bildiyini, lakin ona əməl etmədiyini irad tutur, onu danlayırlar. Bunun nəticəsi isə çox vaxt o qədər də fərəhləndirici olmur. Əksinə, bəzən şagirdin özünə inamı itir, biliklə əməl arasında əlaqə pozulur, biliyin tətbiqi üçün münasib şərait yaranmır. Bu cəhəti nəzərə alaraq birinci növbədə müəllim öz şagirdləri üçün yalnız öyüd-nəsihətçi, mentor tərbiyəçi olmaqdan uzaqlaşmalı, onların əldə etdikləri əxlaqi bilik və təsəvvürləri öz davranışlarına tətbiq etmək meyli və adəti yaratmağa çalışmalıdır. Bunu isə yalnız sözlə, verbal yolla həyata keçirmək mümkün deyildir. Hər şeydən əvvəl uşaqdakı əxlaqi bilik və anlayışlar onun inamına çevrilməlidir.

Psixoloji tədqiqatlar göstərmişdir ki, şagirdlərdə əxlaqi bilik və anlayışların inama çevrilməsi üçün həmin bilik və anlayışların davranış motivləri və onlara uyğun əxlaqi adətlər sistemində möhkəmləndirilməsi tələb olunur. Necə davranmaq, hərəkət etməyi anlanaqla adət edilmiş davranış arasında müəyyən ziddiyyət mövcud olur.

Bu ziddiyyəti aradan qaldırmaq yalnız şagirdlərin müvafiq davranış təcrübəsinə yiyələnməsi nəticəsində mümkün ola bilər. Əxlaqi təcrübəni isə şagirdlər davranışdakı mümarisələr sayəsində, başqa sözlə müəllim tərəfindən uşaqların müxtəlif, lakin mahiyyətcə oxşar həyati situasiyalarda təşkil olunmuş hərəkət və davranışları zamanı əldə edirlər. Psixoloqlar uşaqların bu cür davranış təcrübəsini, praktik fəaliyyətini onların emosiyaları ilə əlaqələndirməyi vacib hesab edirlər. Bu zaman emosiyalar vətənpərvərlik və beynəlmiləlçilik, humanizm, borc, məsuliyyət, yoldaşlıq, vicdan və s. kimi əxlaqi hisslərin formalaşmasına müsbət təsir göstərir.

Adətən, əxlaqi hisslərin, eləcə də əxlaqi inamın yaranmasına nail olmaq, həmin keyfiyyətləri tərbiyə etmək üçün onların şagirdlər tərəfindən fəaliyyət prosesində mənimsənilməsi və keçirilməsi tələb olunur. Əgər şagird heç olmazsa bircə dəfə yerinə yetirdiyi əxlaqi hərəkətdən razılıq hissi keçirərsə, sonradan bir daha həmin hissi halı keçirməyə can atacaqdır.

Məhz buna görə də müsbət əxlaqi hissləri tərbiyə etmək üçün elə situasiya yaratmaq lazımdır ki, şagird qüvvətli müsbət nümunə ilə qarşılaşsın, həmin prosesdə iştirak etsin və müvafiq hisslər keçirə bilsin. Bu zaman şagird öz inam və idealı mövqeyindən çıxış edərək özünü və bütün ətrafdakıları qiymətləndirməyə başlayır.

Adətən, yüksək əxlaqi keyfiyyətlər insanların cəmiyyətin məqsədləri ilə müəyyən edilən praktik fəaliyyətlərində formalaşır. Fəaliyyət prosesində cəmiyyətin nümunələri, idealları təşəkkül tapır. Yuxarıda qeyd etdiyimiz kimi, fəaliyyətin düzgün seçilməsi, müvafiq yaş dövrünə uyğunluğu, düzgün təşkili və tərbiyələndirici istiqaməti həlledici əhəmiyyətə malikdir.

Lakin burada bir cəhəti də unutmaq, nəzərə almamaq olmaz. O, da tərbiyə edən və tərbiyə olunanın qarşılıqlı münasibətlərinin xarakterindən ibarətdir. Burada tərbiyəçinin tərbiyə olunana münasibəti güclü xarici təsir qüvvəsi kimi özünü göstərir. Şagirdin xarici təsirlə daxili aləminin qarşılıqlı əlaqəsini, ona göstərilən xarici təsirə şəxsi münasibətinin xarakteri burada mühüm rol oynayır.

Ona görə də şagirdin şəxsi təcrübəsi böyüklərin ondan tələb etdiyi əxlaq normalarına zidd olarsa, şagird bu tələbləri formal olaraq mənimsəyər, ona yalnız müvafiq şəraitdə – böyüklərin nəzarəti zamanı əməl edər. Təcrübə göstərir ki, qarşılıqlı təsir düzgün qurulmadıqda, qeyri-uyğun rəhbərlik üsmubu tətbiq olunduqda bəzən uşaqlar tərbiyəçinin tələblərinə formal şəkildə də tabe olmur, özünü ona qarşı qoyur, öz şəxsi əqidəsində qalır. Belə olduqda, adətən, uşaq kollektivdən ayrılır, özünə məktəbdənkənar yoldaşlıq mühiti – referent qrup seçir.

Normal şəraitdə belə şagirdlərin tərbiyəçinin tələblərini mənimsəməsi, həmin tələblərin

onun öz tələblərinə çevrilməsi birdən-birə baş vermir, bir sıra mərhələlər keçir. İlk dövrdə şagird həmin tələbi xarici, məcburi tələb kimi qəbul etməli olur. Sonra şagird həmin tələbi könüllü olaraq qəbul edir, öz vəzifəsini, borcunu dərk edir. Son mərhələdə kənardan verilən əxlaqi tələb şagirdin özünün şəxsi, daxili tələbinə çevrilir, özünə qarşı həqiqi tələbkarlıq meydana gəlir. Əxlaq tərbiyəsi düzgün əxlaqi anlayışlar yaratmaq, bu anlayışlara müvafiq adətlər, rəftarlar formalaşdırmaq kimi vəzifələri yerinə yetirir.

Müşahidələr və aparılan tədqiqatlar göstərmişdir ki, əxlaqı nöqsana səbəb çox vaxt onun mahiyyəti haqqında düzgün məlumatın olmamasıdır. Ona görə də əxlaq tərbiyəvi tərbiyə olunanlarda əxlaqi biliklər, məlumatlar və bu biliklərə istinad edən əxlaqi şüur formalaşdırmasından başlandıqda daha səmərəli nəticə verir. Şüurlu sürətdə dərk edilmiş əxlaq norma və qaydaları insanları hər zaman və hər yerdə şüurlu sürətdə hərəkət etməyə məcbur edir. Şüurlu qavranılmış əxlaq insan davranışının tənzimləyicisinə çevrilir. Formalaşmış düzgün əxlaqi istiqamətlər insana həm özünü həm də başqalarının hərəkətlərini, davranışını təhlil edərək obyektiv qiymət vermə imkanı yaradır. Düzgün əxlaqi münasibətlər insanlara müxtəlif situasiya və vəziyyətlərdə vicdanla, etik normalara uyğun şüurlu seçim imkanı verir. Əxlaqi ideal əxlaqın şüurluluğunun xüsusi forması vacib tərkib hissəsi kimi təzahür edir. İdeal hər kəsin arzu etdiyi əxlaqi keyfiyyətlərə malik insan obrazlarıdır. Daha doğrusu, şəxsin özünün olmaq istədiyi insan nümunəsidir. Yəni hər adam idealında gördüyü müsbət əxlaqi keyfiyyətləri özündə də yaratmağa, formalaşdırmağa çılışır. Əxlaqi anlayışlar aşılanması tərbiyənin ilk mərhələsindən başlanır, müxtəlif fəaliyyət sahələrində davam etdirilir. Belə ki, sistemli təlim və tərbiyə müəssisələrində çəmiyyətdə mövcud ümumi əxlaq normaları və onlara riayət etmənin zəruriliyi aşılanır, izah edilir. Müxtəlif fəaliyyət sahələrində isə həmin fəaliyyət üçün zəruri olan əxlaqi keyfiyyətlər, hərəkətlər haqqında anlayışlar yaradılır. Məsələn istehsal əxlaqı, pedaqoqa verilən (həm orta həm də ali məktəb pedaqoqlarına) əxlaqi tələblər, tələbələrə verilən əxlaqi tələblər, diplomatiya əxlaqi, biznes əxlaqı, mədəni fəaliyyət əxlaqı və s. Bunlar isə müvafiq təhsil və fəaliyyət müəssisələrində köməkçi tərbiyəvi fəaliyyət vasitəsilə həyata keçirilir. Məsələn, istehsalat əxlaqı istehsalat müəssisələrindəki mədəniyyət müəssisələrində keçirilən tərbiyə tədbirləri (əxlaqi söhbət, disput, ədəbi –bədii gecələr və s.) vasitəsilə çatdırılır və s.

Əxlaq tərbiyəsinin məzmununa ümumbəşəri dəyərlərlə yanaşı cəmiyyətdə mövcud olan birgə yaşayış qaydaları, yeni sosial və məişət münasibətləri də daxildir. Əxlaq ictimai şüur forması olduğuna görə onun məzmunu da cəmiyyətlə bərabər dəyişir, hər cəmiyyət özünün iqtisadi-ictimai tələblərinə uyğun əxlaq normaları, qaydaları müəyyən edir. Bu qaydalar bütün cəmiyyət üzvləri üçün zəruri-məcburi, hamı üçün məqbul hesab edilən qaydalardır. Bu norma və qaydaların əksi, ona zidd hərəkətlər isə cəmiyyət üçün qeyri-məqbul, hərəkətlər hesab olunub nə cəmiyyət, nə də ki, digər cəmiyyət üzvləri tərəfindən qəbul edilmir. Əxlaq tərbiyəsinin məzmununa vətənpərvərlik, dostluq və yoldaşlıq, qarşılıqlı yardım, beynəlmiləlçilik, fəaliyyətə şüurlu münasibət, intizam, məsuliyyət, düzlük, doğruçuluq, sadəlik tövazökarlıq insanlara humanist münasibət, onu əhatə edən mühitə – təbiətə qayğılı münasibət və s. daxildir.

Əxlaq tərbiyəsinin mühüm komponentlərindən biri də intizamlılıqdır. İntizam tərbiyəsi əxlaq tərbiyəsinin qiymətli, əhəmiyyətli və vacib keyfiyyətidir. Belə ki, intizam insanın bütün fəaliyyətinin ilk göstəricisidir. Ona görə də hələ tərbiyənin ilk mərhələsində onun səmərəli şəkildə formalaşmasına ciddi fikir verilir. İntizam yaşından asılı olmayaraq hər kəsin özünün–özünə rəhbərliyi, fəaliyyətinin şüurlu istiqamətidir. Humanizm mühüm əxlaqi keyfiyyətdir. Bu, başqa insanlara, onların əməyi, fəaliyyəti, şəxsiyyətinə hörmət üzərində qurulur. Şəxsiyyətin hərtərəfli inkişafı şərtlərindən biri də humanistlikdir. Humanizm dedikdə həm də başqa insanların xoşbəxtliyi uğrunda mübarizə, onların istedad, bacarıq və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişafı üçün şərait yaratmaq, insanlar arasında səmimi münasibətlər yaratmaq da başa düşülür. Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq bərabər hüquqlu şəxslər kimi baxmaq: insanların ehtiyaclarına diqqətli olub onlara kömək etmək: insanların qəlbinə dəyməmək – onlara qarşı diqqətli olmaq; başqalarını anlamaq, başa düşmək bacarığı və hövsələsi; zəifləri müdafiəyə hazır

olmaq və s. daxildir. Bu münasibətlər insanların bütün həyat boyunca onlara aşılanmalıdır. Humanizmin əsasını başqalarına hörmət və qayğıkeşliklə yanaşmaq təşkil edir. Başqalarına hörmətlə yanaşan insanlarda isə özündən razılıq, başqalarına yuxarıdan aşağı baxma münasibətləri olmur, onlar yüksək ünsiyyət mədəniyyətinə malik olurlar.

**Problemin aktuallığı**. Əxlaq uşağın kiçik yaşlarından formalaşan prosesdir. Gənc nəslin əxlaqını, tərbiyəsini, psixoloji vəziyyətini araşdırmaq müəllimlərin, pedaqoq və psixoloqların diqqət mərkəzində olub. Bu baxımdan, şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması aktual olaraq qalır.

**Problemin elmi yeniliyi**. Tərbiyə uşaq psixologiyasının çox mürəkkəb problemlərindən biridir. Məqalə də uşaqlarda əxlaq tərbiyəsi haqqında yeni fikirləri formalaşdırır və zənginləşdirir.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədən əxlaq tərbiyəsi ilə maraqlananlar ali və orta ixtisas məktəblərində çalışan müəllim və tələbələr istifadə edilə bilər.

**Ədəbiyyat:**


1. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. -Bakı: Avropa, -2005, -288 s.
2. Bayramov Ə.S. Mənəvi əxlaqi tərbiyənin və dini psixologiyanın bəzi xüsusiyyətləri // Azərbaycan məktəbi, -1988, -s. 42-53.
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi / Bakı: Təhsil, -2008. -134 s.
4. В.А. Сластенина. Социальная психология. -М.: Академия, -2000. -264 с.


**E-mail:** qariba648@mail.ru
**Redaksiyaya daxil olub:** 23.05.2024